**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

Əlyazması hüququnda

**AĞAMİR MİRƏSGƏR OĞLU ƏSGƏROV**

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN ƏHALİ QRUPLARININ MƏŞĞULLUĞUNUN TƏMİN OLUNMASI PROBLEMLƏRİ (ƏLİLLƏRİN TİMSALINDA)

**İxtisas: 5308.01 – Ümumi İqtisadiyyat**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Qafqaz Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Qafarov A.H.**
iqtisad elmləri doktoru

**Rəsmi opponentlər:** **İsgəndərov R.K.**
iqtisad elmləri doktoru

**İsayev K.H.**
iqtisad üzrə fəlsəfə doktoru,

**Aparıcı təşkilat:** **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

Dissertasiyanın müdafiəsi "_20___" 12___ 2013-cü ildə saat ___ da Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu nəzdindəki FD.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"_________ 2013-cü ildə göndərilmişdir.

**FD.01.181 Dissertasiya Şurasının**
**Elmi katibi, iqtisad üzrə fəlsəfə**
**doktoru, dosent** **G.S.Hacıyeva**

## İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı.** XX əsrin 90-cı illərindən başlayaraq ölkəmizin ictimai həyatında və dövlət quruculuğu sahəsində ölkə rəhbərliyi səviyyəsində aparılmış islahatlar nəticəsində dövlətimiz dünya və Avropa iqtisadiyyatına inteqrasiya olunmuş, beynəlxalq məkanda layiqli yerini tutmuşdur. Effektiv şəkildə bölgə və regionlar üzrə reallaşdırılan iqtisadi islahatlar uğurlu nəticələr verərək davamlı inkişafa səbəb olmuş, ölkəmizin iqtisadi dayaqları üçün əsaslar yaratmış, sivil bazar münasibətlərinin formalaşmasına gətirib çıxarmışdır.

Dövlət səviyyəsində sosial sahələr üzrə islahat proqramları əsasında reallaşdırılan effektiv tədbirlər nəticəsində sosial sabitlik əldə olunmuş və bu sahədə davamlı inkişaf templəri qeydə alınmışdır.

Müvafiq islahatlar nəticəsində vətəndaşların pul gəlirlərinin və əmək haqlarının artımı ilə yanaşı, dövlətin sosial sahəyə ayırmaları da yüksək olmuşdur. İşləyən vətəndaşların aylıq əmək haqlarının tədricən artması, sosial müdafiə fonduna ödənişlərin yüksəlməsi, vətəndaşların sosial müdafiəsinin daha yaxşı təmin olunmasına şərait yaratmışdır.

Sosial yönümlü bazar iqtisadiyyatı sistemində dövlətin sosial siyasətinin əsas tərkib hissələrindən biri də aztəminatlı əhali qruplarından olan əlillərin sosial müdafiəsinin gücləndirilməsidir. Son illərdə ölkəmizdə aztəminatlı qrupun sosial vəziyyətinin yaxşılaşdırılması və onların cəmiyyətə inteqrasiyası istiqamətində islahatlar aparılır. Əlillərin cəmiyyətə inteqrasiya olunmasında onların məşğulluq imkanlarının gücləndirilməsi mühüm rol oynayır. Bu xüsusi qayğıya ehtiyacı olan sosial qrupun müdafiəsini gücləndirməklə yanaşı, onların cəmiyyətə daha çox inteqrasiya olunmasına, dövlət büdcəsinin sosial yükünün azalmasına və s. müsbət nəticələrə səbəb olur.

Belə ki, xüsusi qayğıya ehtiyacı olanların səmərəli məşğulluqlarının təşkili dövlət qarşısında duran əsas vəzifələrdən biridir. Müxtəlif ölkələrdə xüsusi qayğıya ehtiyacı olan əhali qruplarının problemləri də həmin ölkələrin siyasi, sosial-iqtisadi vəziyyətinə görə müxtəlifdir. Bu kateqoriyaya daxil olan qruplardan əsasən əlillərin məşğulluq problemi öz aktuallığı baxımından köklü islahatların aparılmasını zəruri edən

məsələlərdəndir. BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə görə əlillilərin cəmiyyətə inteqrasiya olunması, onların məşğulluğunun təmin edilməsi sosial xarakterinə və miqyasına görə bütün dünya üçün qlobal xarakterli problemlərdən biri sayılır. Bu kimi məsələlərin həlli ölkədə daim aktual olmuş və olmaqdadır. Təsdüfi deyildir ki, bu istiqamətdə bir sıra qanunlar, fərmanlar və sərəncamlar imzalanmışdır. Ölkəmizdə də bu sahədə ciddi hüquqi baza yaradılaraq BƏT-in qətnamələri ratifikasiya edilmişdir. Belə ki, xüsusi qayğıya ehtiyacı olanların səmərəli məşğulluğunun təmini istiqamətində ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş 2007-ci ilin may ayında qəbul olunmuş "Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramında (2011-2015-cu illər)" öz əksini tapmışdır.

Beləliklə, xüsusi qayğıya ehtiyacı olan əhali qruplarının məşğulluğunun təmin olunması problemlərinin öyrənilməsi təkcə elmi nöqteyinəzərdən deyil, sosial-iqtisadi siyasət baxımından da aktualdır.

Bütün bunlar xüsusi qayğıya ehtiyacı olan əhali qruplarının məşğulluğunun təmin olunması üzrə tədqiqatın aparılması zərurətini əsaslandırır.

**Problemin öyrənilmə səviyyəsi**. Bazar iqtisadiyyatının əsas tərkib hissəsi olan əmək bazarı, məşğulluq və işsizliyin elmi-nəzəri əsasları klassik iqtisadçı alimlərdən, A.Smit, D.Rikardo, A.Marşall, A.Piqu, K.Marks, C.Keyns və başqaları tərəfindən qoyulmuş, sonralar isə neoklassiklər və monetaristlər tərəfindən inkişaf etdirilmişdir. Müasir dövrdə əmək bazarının mahiyyəti, növləri, xüsusiyyətləri, habelə əmək ehtiyatlarının formalaşması, onların ***əmək fəaliyyətinə effektiv cəlb edilməsi*** məsələləri Azərbaycanın və xarici ölkələrin bir çox görkəmli alimlərinin əsərlərində ***müxtəlif səpkilərdə*** tədqiq edilmişdir. Xarici alimlər arasında A.E.Kotlyarın, A.İ.Rofenin, N.A.Volqinin, V.S.Bulanovun, Q.Q.Rudenkonun, yerli alimlərdən T.Ə.Quliyevin, Ş.M.Muradovun, R.K.İsgəndərovun, S.S.Mehbalıyevin, R.Ş.Muradovun adlarını göstərmək olar.

Yuxarıda qeyd olunan alimlərin əsərlərinin elmi və praktiki əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, bu əsərlərdə xüsusi

qayğıya ehtiyacı olan qrupların o cümlədən gənclərin, əlillərin, orta məktəbdən aktiv iqtisadi həyata keçidi prosesində meydana çıxan problemlər və bu problemlərin həlli ilə bağlı məsələlərin ayrı-ayrı istiqamətlərinə baxılsa da, qarşıya qoyulan problem kompleks şəkildə tədqiq edilməmişdir.

Bunu nəzərə alaraq, ölkə əhalisinin müəyyən hissəsini təşkil edən xüsusi qayğıya ehtiyacı olan əhali qruplarının məşğulluğunun təmin edilməsi problemlərinin kompleks şəkildə tədqiq olunması zərurətini ortaya çıxarmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi müasir şəraitdə Azərbaycanda xüsusi qayğıya ehtiyacı olanların məşğulluğunun təmin olunmasının nəzəri-metodoloji əsaslarının, onların əmək bazarına inteqrasiyasının mövcud vəziyyətinin təhlili əsasında AR-da əlillərin məşğulluğunun səmərəli təmin edilməsi istiqamətində təklif və tövsiyyələrin hazırlanmasından ibarətdir.

Dissertasiya işində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həll edilməsi nəzərdə tutulmuşdur:

- ✓ mövzuya dair respublika və xarici ölkə alimlərinin fikirlərinin öyrənilib ümumiləşdirilməsi əsasında xüsusi qayğıya ehtiyacı olanların (əlillərin) məşğulluğunun təmin olunmasının nəzəri məsələlərinin araşdırılması;
- ✓ əlillərin əmək bazarı və bu sahədə məşğulluq siyasətinin formalaşması istiqamətlərinin müəyyənləşdirilməsi;
- ✓ Azərbaycanda xüsusi qayğıya ehtiyacı olanların işlə təmin olunması üzrə mövcud və alternativ normaların tədqiq olunması;
- ✓ xüsusi qayğıya ehtiyacı olanlar üzrə əmək bazarının təşəkkülü sahəsində beynəlxalq təcrübənin öyrənilməsi;
- ✓ əlillərin məşğulluğunun effektiv təşkili sahəsində müasir vəziyyətinin tədqiq edilməsi;
- ✓ ölkədə dövlət sosial müdafiə qurumları tərəfindən əlil vətəndaşların əmək bazarına inteqrasiyasının təmin edilməsi üzrə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və s.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini Azərbay-

canda xüsusi qayğıya ehtiyacı olan əhali qrupları, predmetini isə onların əmək bazarına inteqrasiyası prossesində yaranan iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını** iqtisad elminin görkəmli alimlərinin sosial-iqtisadi inkişaf nəzəriyyələri, məşğulluğun tədqiqi sahəsində xarici ölkə və Azərbaycan alimlərinin elmi-tədqiqat işləri, AR Prezidentinin qərar və sərəncamları, AR Milli Məclisinin qanunları təşkil edir.

**Tədqiqat prosesində** iqtisadi-statistik, müqayisəli təhlil, ümumiləşdirmə, tarixilik üsullarından istifadə edilir.

**Tədqiqatın informasiya mənbəyini** problemlə baglı rəsmi statistik məlumatlar, respublikanın müvafiq nazirliklərinin materialları, rəsmi saytlar, yerli və xarici ölkələrin nəşrləri, əmək bazarı və təhsil problemləri üzrə beynəlxalq və yerli konfrans və seminarların materialları, müvafiq qanunvericilik sənədləri və dövlət proqramları təşkil edir.

**Tədqiqat işinin əsas elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- ✓ müasir mərhələdə xüsusi qayğıya ehtiyacı olanların məşğulluğunun təmin olunmasının nəzəri metodoloji əsaslarının araşdırılması;
- ✓ əlillərin əmək bazarı və bu sahədə məşğulluq siyasətinin formalaşması xüsusiyyətləri əsaslandırılmışdır;
- ✓ xüsusi qayğıya ehtiyacı olanlar üzrə əmək bazarının təşəkkülü sahəsində beynəlxalq təcrübə tədqiq olunmuş və Azərbaycanda tətbiqi imkanları müəyyənləşdirilmişdir;
- ✓ əlillərin məşğulluğunun effektiv təşkili sahəsində müasir vəziyyət tədqiq olunmuş, mövcud problemlərin həlli istiqamətləri müəyyən olunmuşdur;
- ✓ respublikada iqtisadi sahələr üzrə istehsalat əlillərinin məşğulluğunun təmini məsələləri təhlil olunmuşdur;
- ✓ əlil qruplar üzrə məşğulluğun təmin olunmasında beynəlxalq təcrübəyə əsaslanan kvota sisteminin ölkəmizdə tətbiqi istiqamətində təkliflər işlənmişdir;
- ✓ respublikada dövlət sosial müdafiə orqanları tərəfindən əlil vətəndaşların əmək bazarına inteqrasiyasının təmin edilməsi

sahəsində nəzəri və praktiki təklif və tövsiyələr verilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində əldə edilən nəticə və təkliflər elmi tədqiqat institutlarında, əlil vətəndaşların məşğulluğunun təmin olunması yönümündə hüquqi-normativ sənədlərin təkmilləşdirilməsində, əlillərin məşğulluğunun perspektiv dövr üçün təmin edilməsi məqsədi ilə inkişaf konsepsiyasının hazırlanmasında və s. istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işinin nəticələri 2010-cu ildə "Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların Ümumrespublika Elmi Konfransında, 2010-cu ildə Ümumimilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Hüquq elminin müasir problemləri" mövzusunda 2-ci Beynəlxalq Konfransında, 2010-cu ildə "Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya" İqtisadiyyat və Beynəlxalq münasibətlər III Beynəlxalq konfransda, 2012-ci ildə Lənkəran Dövlət Universitetində keçirilən Dayanıqlı inkişaf və idarəetmə metodları nəzəriyyə və praktika adlı beynəlxalq konfransında, 2012-ci ildə "Elmin müasir naliyyətləri" mövzusunda IV Beynəlxalq iştiraklı distansion elmi konfransda dərc edilmiş, məruzə ilə çıxışlar edilmişdir.

**Tədqiqat işinin nəticələri üzrə dərc olunmuş materiallar.** Dissertasiya işinin mövzusu üzrə 3 tezis və 7 məqalə, o cümlədən xaricdə 1 məqalə nəşr edilmişdir.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, 8 paraqraf, nəticə və 138 adda ədəbiyyat siyahısı olmaqla 159 səhifədən, o cümlədən 12 cədvəl və 1 əlavədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya işinin aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti göstərilir, həmçinin işin elmi yeniliyi, praktiki əhəmiyyəti və aprobasiyası şərh edilir.

Dissertasiyanın **“XÜSUSİ QAYĞIYA EHTİYACI OLANLARIN ƏMƏK BAZARININ NƏZƏRİ METODOLOJİ ƏSASLARI” adlanan birinci fəslində** Azərbaycan Respublikasında müasir mərhələdə əlillərin məşğulluğunun təmin olunmasının sosial-iqtisadi əsasları təhlil edilərək, əmək bazarında iştirakının nəzəri metodoloji məsələləri tədqiq edilir, əmək bazarının mahiyyəti, ona təsir edən amillər araşdırılır.

Məlum olduğu kimi, əmək bazarı müəyyən bir ərazi daxilində öz maddi və mənəvi tələbatlarının ödənilməsi məqsədi ilə insanların tələb və təkliflərinin qarşılaşdığı yerdir. Əmək bazarı cəmiyyətin sosial-siyasi, iqtisadi həyatında vacib və planlı sahədir. Əmək bazarında iş qüvvəsinin dəyəri qiymətləndirilir, əmək şəraiti, əmək haqqının kəmiyyəti, təhsil almaq imkanları, məşğulluq təminatı və sairə müəyyənləşdirilir. Əmək bazarında iş qüvvəsi bu bazarın obyektini təşkil edir. Əmək bazarı məşğulluq dinamikasının əsas meyllərini özündə əks etdirir.

İşdə iqtisadiyyatın mühüm tərkib hissələrindən birini təşkil edən əmək bazarının nəzəri əsasları təhlil edilərək, xüsusi qayğıya ehtiyacı olanların əmək bazarı və onların burada iştirakı məsələləri tədqiq edilir.

İqtisad elmində əmək bazarı nəzəriyyəsinin əsasını şotland iqtisadçısı Adam Smit, ingilis iqtisadçısı David Rikardo, fransız iqtisadçısı Jan-Batist Sey qoymuşlar. A. Smit maddi, maliyyə və insan resurslarından optimal istifadəni azad rəqabətdə görür və sübut edirdi ki, ölkənin iqtisadiyyatında əhalinin məşğulluğunun həcmi bir işçinin orta əmək haqqı məbləği ilə müəyyən edilir

Qeyd edilir ki, David Rikardo əmək haqqı məbləğinin əməyə olan tələbatından asılılığını sübut edirdi. O belə hesab edirdi ki, əmək haqqının artması əhalinin təkrar istehsalının normal qaydada həyata keçirilməsi üçün tələb edilən minimum səviyyədən yuxarı olması əmək təklifinin artmasına, bu isə öz növbəsində əmək haqqının aşağı düşməsinə təsir göstərir.

XIX əsrin axırlarında və XX əsrdə bazar nəzəriyyəsi bir sıra görkəmli iqtisadçıların əsərlərində geniş şərh edilmişdir. Bu alimlərin əsərlərində əmək bazarına dair bir-birindən fərqli xeyli fikirlər söylənsə

də, nəticə etibarı ilə onların demək olar ki, hamısı eyni məntiqə gəlib çıxırlar ki, əmək bazarı dedikdə, iş qüvvəsinin təkrar istehsalı, mübadiləsi və istifadəsini təmin edən ictimai münasibətlər, sosial institutlar başa düşülür.

Müəllif belə qənaətə gəlir ki, əmək bazarı dedikdə - ən ümumi halda işverənlərlə muzdlu fəhlələr, iş qüvvəsi alıcıları ilə onun satıcıları arasında birincilərin əməyə olan tələbləri ilə ikincilərin işə olan təkliflərinin ödənilməsi üzrə formalaşan iqtisadi münasibətlər sistemi başa düşülür.

Əhalinin ölkəmizin qanunvericiliyinə zidd olmayan və məlum olduğu kimi onlara qazanc gətirən hər hansı bir fəaliyyətlə məşğul olması onların həyatının məqsədi olub, ölkənin sosial əmin-amanlığının mühüm şərtlərindən biri sayılmaqdadır. Buna görə də hazırda ölkəmizdə əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi onların əmək bazarında iştirakını təmin etmək mühüm vəzifə kimi dövlətin qarşısında duran əsas məsələlərdəndir.

Azərbaycan Respublikası keçmiş SSRİ-də uzun illərdən bəri əmək ehtiyatlarının ən sürətlə artdığı regionlardan biri kimi fərqlənmiş və burada əmək ehtiyatlarının artımı, bir qayda olaraq, həmişə iş yerlərinin artımını üstələmişdir. Bu səbəbdən də Azərbaycan Respublikası keçmiş SSRİ-də əmək ehtiyatlarının ictimai istehsaldakı məşğulluq səviyyəsinin də ən aşağı olduğu ərazilərdən biri kimi diqqəti cəlb edirdi.

Müasir bazar iqtisadiyyatı şəraitində mövcud əmək potensialından səmərəli istifadə edilməsi hər bir ölkənin qarşısında duran əsas sosial-iqtisadi problemlərdən biridir. Bu problemin həlli onun formalaşması və ondan istifadənin elmi əsaslarla tənzimlənməsi ilə bilavasitə bağlıdır.

Burada məşğulluq və onun formalaşmasını səciyyələndirən proseslər ətraflı tədqiq edilmiş və dissertasiya işində öz əksini tapmışdır.

Azərbaycan Respublikasının 2006-2015-ci illəri əhatə edən Məşğulluq Strategiyasında göstərildiyi kimi, əsrin sonlarından başlayaraq özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında bütün resurslardan, o cümlədən əmək ehtiyatlarından səmərəli istifadəni təmin etməklə, iqti-

sadi cəhətdən güclü və yüksək sosial standartlara malik cəmiyyətin qurulması əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Azərbaycanda həssas qrupların əmək bazarında iştirakı məsələlərinə və məşğulluğunun təmininə nəzər salmazdan əvvəl ölkəmizdə əmək bazarı və məşğulluğunun mahiyyətinə və formalaşma xüsusiyyətlərinə və əmək potensialının qurluşunun formalaşmasına təsir edən amillərə nəzər salmaq daha məqsədəuyğun olar. Bu sahədə Azərbaycanın bir sıra görkəmli alimlərinin yazdıqları əsərlərdə bu məsələlər öz əksini tapmışdır.

Məşğulluq prosesində insanlar arasında yaranan münasibətlər sosial iqtisadi xarakter daşımaqla, təkcə əmək prosesini deyil, həm də məşğulluq prosesinin özünün formalaşmasını əhatə edir. Məşğulluğa fərqli bir prizmadan baxdıqda əmək kimi görünsə də, əməklə məşğulluq sinonim olmayıb bir-birindən fərqlənirlər. Belə ki, əgər əmək insanların şüurlu, məqsədəuyğun fəaliyyətidirsə, məşğulluq müəyyən iş yerlərində işçinin konkret əmək kooperasiyasına qoşulmaq üzrə mövcud olan ictimai münasibətdir. Əmək prosesi başlamazdan əvvəl məcmu işçilər iqtisadiyyatın sahələri arasında bölüşdürülməli və istehsal vasitələri ilə təmin olunmalıdırlar. Bu isə o deməkdir ki, məşğulluq münasibətləri əmək prosesindən qabaqda gedən bir prosesdir, yəni onun sələfidir.

Azərbaycanda əmək bazarının inkişaf dinamikasına nəzər saldıqda, görərik ki, keçən əsrin sonlarından başlayaraq iqtisadiyyatda müşahidə olunan sabit artım templəri ölkənin sosial yönümlü inkişafını təmin etmiş, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və məşğulluğun artırılması üçün əlverişli şərait yaratmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadi sıçrayışa nail olması iqtisadiyyatın digər sahələrinin inkişafına da öz təsirini göstərmişdir.

Makroiqtisadi göstəricilərin yüksəlməsi əhalinin məşğulluğu sahəsində məqsədyönlü və səmərəli dövlət siyasətinin aparılması, əmək bazarının inkişafına da öz töhfəsini vermişdir.

Bu strateji siyasətin istiqrarlı olması və artan templə inkişaf etdirilməsi üçün davamlı məqsədyönlü tədbirlərin keçirilməsini vacib

edərək bu sahədə davamlı elmi tədqiqatların aparılmasına rəvac vermişdir. Bunun üçün əmək bazarındakı vəziyyəti sistemli monitorinqinin aparılması, onun göstəricilərinin dəyişmə dinamikasının, tələb və təklif arasındakı nisbətin öyrənilməsi, habelə onun əsas xüsusiyyətlərinin qiymətləri baxımından proqnoz hesablamalarının aparılmasını zəruri edir. Odur ki, əmək bazarının formalaşması və inkişafı problemləri, bu sahədə baş verən proseslərin təhlili xüsusi diqqət və dərin elmi tədqiqatlar tələb edir.

Tədqiqatın **“ƏLİLLƏRİN ƏMƏK BAZARINA İNTEQRASİYASININ MÖVCUD VƏZİYYƏTİ , İQTİSADİ VƏ SOSİAL QİYMƏTLƏNDİRİLMƏSİ”** adlanan II fəslində xüsusi kateqoriyalı vətəndaşların, xüsusən əlillərin əmək bazarına inteqrasiyasının beynəlxalq təcrübə baxımından müqayisəli təhlili aparılmış, onların məşğulluğunun səmərəli təşkili ilə əlaqədar xarici ölkələrin təcrübəsi tədqiq edilmişdir.

Bu sahədə əsasən həssas qrupların məşğulluğunun təmin edilməsinin səviyyəsini sinifləndirdikdə təməlində iki əsas səbəbin, iqtisadi və sosial səbəbin dayandığı göstərilir. Ancaq bu səbəblərə keçməzdən əvvəl, əlillərin sağlam insanlara nisbətən məşğulluqlarının təmin edilməsinə daha çox ehtiyac olduğu bildirilir. Belə ki, bu ehtiyacın qarşılanmaması hər şeydən əvvəl əlilin cəmiyyətdən təcrid olunmasının qarşısını alır və ya başqa bir ifadə ilə əlilə sosial və psixoloji olaraq təsir göstərir. Digər bir tərəfdən işləyərək qazandığı əmək haqqı ilə başqasına möhtac olmaması, və normal bir insan olaraq əmək bazarında yer alması əlil olsa belə, hər bir insan üçün vacibdir.

Əlilliyin yaranma səbəblərini təhlil etdikdə; avtomobil qəzaları, kənd təsərrüfatı sektorunda yaranan qəzalar, iş qəzaları, peşə xəstəlikləri, idmanla məşğul olan zaman baş verən qəzalar, müharibə qəzaları, Çernobıl qəzası, hava, su və qida zəhərlənmələri, sənayeləşən və şəhərləşən cəmiyyətlərdə ortaya çıxaraq bir sıra əlilliyin yaranmasına səbəb olduğunu görürük. Bütün bunların nəticəsində əlilliyin qarşısının alınması məqsədi ilə dünyada keçirilən bütün tədbirlərə baxmayaraq bu problemi əsaslı olaraq ortadan qaldırmaq mümkün olmamışdır.

"Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin qərarı qüvvəyə minmişdir ki, burada da ölkəmizdə Sosial müdafiəyə ehtiyacı olanlar 9 kateqotiyada: 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, əlil uşaqları tərbiyə edən qadınlar, pensiya yaşına 2 ildən az qalmış şəxslər, əlillər, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlar, məcburi köçkünlər, müharibə veteranları, şəhid ailələri əks etdirilmişdir. Bu qanunda ölkədə xüsusi qayğıya ehtiyacı olan insanların məşğulluğunun təmin edilməsi üçün dövlət tərəfindən kvota tətbiq edilir ki, bu da həssas qrupların məşğulluğunun təmin edilməsi sahəsində atılmış ən önəmli addımlardan biridir.

Ümumiyyətlə dünya iqtisadçılarının gəldikləri qənaətə görə, əlillərin məşğulluğunun təmin edilməsi, onların problemlərinin əsaslı həll edilməsi, inkişaf etmiş ölkələrin payına düşür. Belə qənaətin başlıca səbəbi, əlillərə yaradılan xidmətlər, imkan və fürsətlər ölkənin iqtisadi vəziyyəti ilə bilavasitə bağlıdır. Belə iqtisadi vəziyyət, inkişaf etmiş ölkələrdə əlillərə məşğulluğun təmin edilməsi nisbətinin daha da yüksək olduğunu göstərir. Amma əlillərin məşğulluğunun təmin edilməsinin təməlinə nəzər saldığımızda, problemin sadəcə ölkənin iqtisadi vəziyyətinin yaxşı olması ilə əlaqədar olmadığını və əsasən bununla bərabər əlillərin əmək bazarında yer alması əvvəlcədən yaradılmış müəyyən dövrü əhatə edən əsaslı infrastrukturun nəticəsi olduğu müşahidə edilir.

Azərbaycanda əlillərin qarşılaşdıqları problemlər-xüsusi qayğıya ehtiyacı olan insanların məşğulluğunun təmin olunması problemləri, əlillərin əmək bazarına çıxışı üçün mövcud olan məhdudiyyətlər həddən artıq çoxdur və bu baxımdan yalnız qanunvericiliyin təkmilləşdirilməsi kifayət deyil. Bütün müəssisələrin dövlətin tabeçiliyində əlillər üçün şərait yaradılmadığı halda, bazar münasibətləri şəraitində hər hansı sahibkardan müəssisədə işçi üçün xüsusi lift quraşdıracağı, panduslar və sanitar qovşaq hazırlayacağı real deyildir. İşəgötürən bir neçə nəfər üçün belə xərcləri çəkməyə hazır deyil. Bu baxımdan əlillər işəgötürənlər üçün

"peşəyə yararsız" hesab olunur. Ölkədə əlillərin əmək bazarına çıxışının asanlaşdırılması üçün müvafiq qanunvericilik təminatının olmasına baxmayaraq bu insanları işə qəbul edərək imtiyazlı əmək şəraiti yaratmaq heç bir işəgötürənin planlarına daxil deyildir. 1992-ci ildə qəbul edilmiş "Əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında" qanun da var. Qanuna sonradan çoxsaylı əlavə və düzəlişlər edilmişdir. İşdə əlillərin reabilitasiyası ilə bağlı qanunvericilik ətraflı təhlil edilmiş,mövcud boşluqlar aşkar edilmiş və aradan qaldırılması ilə bağlı əsaslandırılmış təklif və tövsiyələr hazırlanmışdır.

Qeyd edilir ki,qanunun tətbiqində ciddi problemlər mövcuddur və qanunun tələblərinə əksəriyyət hallarda əməl olunmur. Gizli iqtisadiyyatın və "ikili mühasibatlığın" (yaxud qara mühasibatlığın) mövcudluğu şəraitində bu qanunun tətbiqi real görünmür. İşəgötürənlər işə qəbul olunma istəyənin əlil olduğunu bildikdə, müxtəlif bəhanələrlə işə qəbul etməkdən imtina edirlər. Bunun əsas səbəbləri əlillər üçün bəzi imtiyazların (məsələn, digərlərinə nisbətən daha uzun müddətli ödənişli məzuniyyət hüququnun olması) və belə insanların peşə xəstəliklərinə tutulma ehtimalının böyük olması ilə bağlıdır. Eyni zamanda işəgötürənlər əlilləri onların sağlamlıqlarına ziyan gətirə biləcək işlə təmin etdikdə buna görə məsuliyyət daşıyırlar. Nəticədə bir çox əlil insanlar əlil olduqlarını işəgötürənlərdən gizli saxlamaq məcburiyyətindədirlər. Belə olan halda onlar Əmək Məcəlləsində nəzərdə tutulan imtiyazlardan, o cümlədən 42 təqvim günü müddətində məzuniyyət hüququndan məhrum olurlar və ən yaxşı halda sağlam işçilər üçün nəzərdə tutulan müddətdə ödənişli məzuniyyət hüququndan istifadə edirlər.

Əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında Qanununa görə əlillər üçün xüsusi ixtisaslaşmış iş yerlərinin yaradılması nəzərdə tutulsa belə iş yerlərinin yaradılmasına nə dövlət orqanları, nə də özəl strukturlar səy göstərmir. Həmin qanunun 26-cı maddəsinə əsasən müəssisələr istehsalatda bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini itirmiş, yaxud peşə xəstəliyinə tutulmuş, bunun nəticəsində əlil sayılmış işçilərin işə düzəlməsi üçün iş yerləri ayırmağa və yenilərini təşkil etməyə borcludurlar. Bu qaydalara əməl

etməyən işəgötürənlər Dövlət Sosial Müdafiə Fonduna Minimal əmək haqqının 120 misli miqdarında ödəniş həyata keçirməlidirlər. Təəssüf ki, praktikada bu tələbə əsasən əməl olunmur. İşəgötürənin təqsiri üzündən peşə xəstəliyinə tutulmuş və ya istehsalat şikəstliyi qazanmış şəxslər bir çox hallarda sonradan iş yerlərini də itirməli olurlar. Ölkədə mövcud olan işsizlər içərisində əlillər xüsusi çəkiyə malikdir. Belə insanların məşğulluğunun təmin olunmaması isə onların cəmiyyətdən deinteqrasiya olunmasına, marginallaşmalarına və ayrı-seçkiliyə məruz qalmalarına səbəb olur. Uzun illər ərzində qanunvericiliyin mövcud olmasına baxmayaraq əlillərin qanunda nəzərdə tutulan qaydalara müvafiq olaraq işə qəbul olunmaları mümkün deyildir.

Bundan əlavə müəssisə rəhbəri əlilləri, ümumiyyətlə hüquqi bir məcburiyyət, ya da xüsusi bir səbəb olmadıqda onların məşğulluqlarını təmin etmək istəmirlər. Ona görə ki, əlillərin ümumilikdə iş stajı (və ya iş təcrübəsi) olmur; karyera və peşə təhsili yönümün də işə uyğun gəlmirlər. Əlil insan müəssisə rəhbərinə məhsuldarlığının az olması ilə yanaşı böyük xərc gətirir. Buna görə də digər işçilərə görə şansları daha az olur.

Araşdırmalara görə müəssisə rəhbərlərinin əlil insan işlətməmə səbəbləri aşağıdakı cədvəldə verilir;

**Cədvəl 1**

**Müəssisə rəhbərlərinin əlil insan işlətməmək səbəbləri**



Müəssisə rəhbərlərinin bu davranışları əlillərin məşğulluq probleminin əsas qaynağını təşkil etməklə yanaşı, əlillərin işi ilə əlaqədar bacarıqları, nailiyyətləri və əgər varsa xüsusi istedadları nəzərdən qaçırılaraq, məşğulluqlarını davam etdirə bilməməsinə və iş yerini tərk etməsinə gətirib çıxarır.

Bundan başqa xüsusi qayğıya ehtiyacı olan insanların məşğulluğunun təmin olunması problemləri əlillərin əmək bazarına çıxışı üçün mövcud olan məhdudiyyətlər həddən artıq çoxdur və bu baxımdan yalnız qanunvericiliyin təkmilləşdirilməsi kifayət deyil. Bütün müəssisələrin dövlətin tabeçiliyində əlillər üçün şərait yaradılmadığı halda, bazar münasibətləri şəraitində hər hansı sahibkardan müəssisədə işçi üçün xüsusi lift quraşdıracağı, panduslar və sanitar qovşaq hazırlayacağı real deyildir. İşəgötürən bir neçə nəfər üçün belə xərcləri çəkməyə hazır deyil. Bu baxımdan əlillər işəgötürənlər üçün "peşəyə yararsız" hesab olunur. Bu insanları işə qəbul edərək imtiyazlı əmək şəraiti yaratmaq heç bir işəgötürənin planlarına daxil deyil.

Araşdırmalar göstərir ki, əlilliyi olan insanların məşğulluğunun təmin olunması, başqa sözlə, onların əmək bazarına inteqrasiyası sahəsində müxtəlif ölkələrdə geniş çeşidli siyasət tədbirləri həyata keçirilir. Bu siyasət tədbirləri həm formaca, həm də məzmunca rəngarəng olsa da, onları öz xarakterlərinə görə ümumi şəkildə iki qrupa bölmək olar:

- əlilliyi olan insanların Açıq Əmək Bazarında birbaşa, əlilliyi olmayan şəxslərlə birgə rəqabət şəraitində, məşğulluğunun və ya özünüməşğulluğunun təmin olunmasına yönəlmiş siyasət tədbirləri;
- əlilliyi olan insanların xüsusi şəraitdə və ya dəstəklənən formada, başqa sözlə, Açıq Əmək Bazarında birbaşa iştirak etmədən məşğulluğunun və ya özünüməşğulluğunun təmin olunmasına yönəlmiş siyasət tədbirləri. Məhz belə məşğulluq siyasətləri forma və məzmunca çox müxtəlifdir və ölkələr, ənənələr, mədəniyyətlər, iqtisadi, sosial və əmək bazarının xüsusiyyətləri, sosial müavinət sistemləri, əlilliyi olan insanların ictimai təşkilatlarının təsirlərindən və digər xüsusiyyətlərdən asılı olaraq fərqlənirlər.

Xarici ölkələrdə əlillərin məşğulluq nisbətinə nəzər yetirdikdə 2002-ci ildə əlillərin işsizlik nisbətinin ən yüksək olduğu ölkə 47.4 % ilə Koreya olduğu görünür. Koreyadan sonra 27.0% ilə İspanya və 26.8% nisbəti ilə Hollandiyadır.

**Cədvəl 2.**

**OECD(iqtisadi əməkdaşlıq inkişaf təşkilatı) ölkələrində əlillərə ait işsizlik nisbətləri (2010)**

| Ölkələr | İşsizlik nisbəti (%) |
|---|---|
| Avstraliya | 10.2 |
| Avstriya | 13.0 |
| Belçika | 22.8 |
| Danimarka | 15.7 |
| Fransa | 17.5 |
| Almaniya | 20.5 |
| İtalya | 14.5 |
| Koreya | 47.4 |
| Meksika | 1.8 |
| Hollandiya | 26.8 |
| Polşa | 19.7 |
| Portuqaliya | 12.7 |
| İspanya | 27.0 |
| İsveç | 18.0 |
| İsveçrə | 6.8 |
| İngiltərə | 12.1 |
| A.B.Ş | 5.3 |
| **OECD** | **17.2** |
| **AB** | **18.2** |




Əlil əhalinin işsizlik nisbətinin ən az olduğu ölkə isə 1.8% ilə Meksikadır. ABŞ isə Meksikadan sonra, 5.3 % nisbəti ilə əlillərin ən çox məşğul olduğu ikinci ölkə olaraq qalır. Azərbaycanda isə əlillərin 93.1%-nin məşğulluğunun təmin olunmadığını gördükdə aradakı fərqə baxaraq 21-ci əsrin əvvəllərində axırıncı sırada dayandığını görərik. Buradan belə nəticə çıxarmaq olar ki bu sahədə bir sıra dövlət islahatlarının aparılmasına baxmayaraq, bu sahənin inkişafında dünya təcrübəsindən geniş istifadə olunması zəruridir. 2008-ci ilin statistikasına nəzər yetirdiyimizdə Baş məşğulluq idarəsindən verilən məlumata görə məşğulluq orqanlarında 373 nəfər əlil işsiz kimi qeydiyyata alınmış, onlardan 224 nəfəri işlə təmin olunmuşdur ki, bu təxminən 60% təşkil edir. Buradan görünür ki, Azərbaycanda olan əlillərin az bir qismi məşğulluq idarələrində qeydiyyatdan keçmələridir.

İşdə əlillərin cəmiyyətə inteqrasiya olunması üçün əsas maneələr qruplaşdırılmışdır:

1. **Əlçatanlıq**. Siyasətə qoşulma və boş zamanlarında əmtəə və xidmətlərdən faydalanmaq, digər insanlarla müqayisədə əlil insanlar üçün çox çətindir. Məsələn; Market, restoran, kinoteatr, poşt, məktəb və məhkəmə kimi əhalinin istifadəsi üçün nəzərdə tutulan bu kimi xidmətlərin əlillər insanların istifadəsi çox çətindir.

Nəqliyyat və digər infrastrukturlardan istifadə, iş və sosyal fəaliyyətləri həyata keçirmək əlillər baxımından problem təşkil etməkdədir.

Müxtəlif standartlar, hətta bəzən əhaliyə xidmət göstərən sığorta şirkətlərinin əlillər üçün xidmətlərin göstərilməməsi, icarəyə verilən mülk və bank xidmətlərindən daha az istifadə edilməkdədir.

Dövlətə aid internet resurslarından sadəcə 5%-i internetdən istifadə standartlarına tam olaraq əməl etməkdədirlər.

2. **Məşğulluğun təmini.** Avropada əlil insanların təxminən 50%-i məşğuldurlar. Çox ağır dərəcədə əlilliyi olan insanlarda məşğulluq nisbətləri isə müvafiq olaraq 19.5%-lə 41.1%-dir.

3. **Təhsil.** Əlil insanların təhsil imkanlarında tam olaraq yararlanma nisbəti çox aşağıdır. 16-19 yaş aralığında təhsil imkanlarından istifadə edə bilməmə imkanları; əhəmiyyətli ölçüdə əlil olanlarda 37%, daha az əlillik dərəcəsinə sahib insanlarda 25%, əlil olmayan insanlarda isə 17%-dir. Belə bir vəziyyət fərdi inkişafa, fərdin cəmiyyətə inteqrasiyasına və iş imkanlarına mənfi təsir edən başlıca amillərdir.

4. **Sosial müdafiə**. İş tapmaqda çətinlik çəkən insanların səfalətə düşmə və sosial həyatdan təcrid olunma riskləri də yüksəkdir. Əlillərdə yoxsulluq nisbəti ortalama 70%-in üstündədir.

Hazırda bir çox ölkələrdə, xüsusən də ABŞ, Yaponiya və Aİ ölkələrində sosial müəssisələr geniş yayılmışdır. Buraya sosial bizneslər, inam birlikləri, icma müəssisələri, icma kooperativləri, qonşuluq kooperativləri, işçi kooperativləri, sosial kooperativlər, kredit birlikləri, mikrokredit və birgə məsuliyyət cəmiyyətləri aiddir. Aİ-də sosial iqtisadiyyat (sosial müəssisələr onun tərkib hissəsi kimi) Avropa iqtisadi modelinin mühüm bir hissəsi kimi nəzərdə tutulur. Məsələn, İtaliyada sosial kooperativlər haqqında qanunvericilik aktı son 10 ildə bu sektorun genişlənməsinə səbəb olmuşdur. Əvvəllər bu kooperativlər yalnız öz üzvlərinin sosial rifahının yaxşılaşdırılmasına yönəlirdisə, hazırda yerləşdiyi icmaların inkişafına daha çox diqqət yetirilir.

Tədqiqatın "**AZƏRBAYCAN RESPUBLİKASINDA ƏLİLLƏRİN MƏŞĞULLUĞUNUN SƏMƏRƏLİ TƏMİN EDİLMƏSİ**" adlanan III fəslində əlillərin işlə təmin olunması qaydaları, ölkədə tətbiq olunan kvota sistemi və onların reabilitasiya imkanları tədqiq edilir.

Xüsusi qayğıya ehtiyacı olanların məşğulluğunun təmin edilməsi demək olar ki, bütün ölkələrin ən vacib problemlərindən olub, təhsil və məşğulluq siyasətində bu işgücünə xüsusi bir yer və xüsusi haqq tanınmaqdadır. Günümüzdə bəzi Avropa ölkələri əlillərin məşğulluğunun təminində özəl sektora məcburi məşğulluq kvotası tətbiq etməyərək,

sığorta və vergi endirimləri kimi təşviqlərlə dünyanın bir çox ölkəsində məcburi olan əlillərin məşğulluğunu könüllü təşəbbüslərə buraxmışdır.

Məşğulluq sahəsində işverənlərin müəyyən nisbətdə və sayıda xüsusi qayğıya ehtiyacı olanları işlə təmin olunmasını məcburi edən, o cümlədən bu növ insanların iş həyatına daxil olmalarını asanlaşdıran və daha rahat iş tapmalarına zəmin yaradan metodların başında əlillər üçün tətbiq olunan kvota sistemi durur. Kvota sistemi xüsusi kateqoriyalı vətəndaşların əməyinin səmərəliliyinin artırılması məqsədi ilə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər tərəfindən onlar üçün tətbiq olunan metoddur.

Həmçinin kvotanın tətbiqi məşğulluqla əlaqədar olaraq xüsusi bir qrupa aid insanların məşğulluğunun təmin edilməsinə yönəlmiş tənzimləyici tədbirdir. Ümumilikdə, kvotalar qismən könüllü (cəmiyyət qarşısında mənəvi borc qismində), əsasən isə, qanunvericiliklə tənzimlənən məcburi xarakterli tədbir kimi tətbiq olunur.

Azərbaycanda bu kvota sisteminin tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 tarixli 213 saylı qərarı ilə təsdiq edilmişdir. Həmçinin bu qayda "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 9 avqust tarixli 549 nömrəli fərmanına uyğun olaraq hazırlanaraq xüsusi qayğıya, yəni sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunu təmin etmək üçün kvota tətbiq edilməsi qaydası müəyyən edilmişdir. Avropa ölkələri birinci dünya müharibəsindən sonra dövlət və özəl sektorda müəyyən sayda əlilin məşğulluğunun təmin etmələri üçün fəaliyyət göstərmişlər. Kvota şəklində əlillərin məşğulluğunun təmin edilməsi, xüsusi ilə müharibədə əlil olan müharibə veteranlarının məşğulluğunu asanlaşdırmaq məqsədi ilə ilk dəfə Almanyada 1919-cu ildə, daha sonra Avstriyada 1920-ci ildə, İtalyada -1921-ci ildə, Polşada 1921-ci ildə və Fransada 1923-ci ildə tətbiq edilməyə başlanmışdır.

Bu qaydanın tətbiqi ilk dəfə müharibə zamanı əlil olan insanlar üçün nəzərdə tutulmağına baxmayaraq zaman keçdikcə bu kvotanın əhatə dairəsi genişlənərək digər xüsusi kateqoriyaları da nəzərə almışdır. Bu kateqoriyalar hər ölkədə müxtəlif siniflərə ayrılır. Azərbaycanda isə "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən xüsusi kateqoriyalı vətəndaşlara, yəni sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən kateqoriyalara aşağıdakılar aid edlir:

- 20 yaşadək gənclər;

- yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çox uşaqlı valideynlər;
- əlil uşaqları tərbiyə edən qadınlar;
- pensiya yaşına 2 ildən az qalmış şəxslər;
- əlillər;
- cəza çəkmə yerlərindən azad edilmiş vətəndaşlar;
- məcburi köçkünlər;
- müharibə veteranları;
- şəhid ailələri.

Beynəlxalq təcrübəni araşdırarkən müəllif belə qənatə gəlir ki, kvota sisteminin tətbiqi ilə yanaşı, kvota üzrə müəyyənləşdirilmiş iş yerlərinin ehtiyatda saxlanılması mexanizminin tətbiqi, əlilliyi olan insanların peşə hazırlığının məqsədli şəkildə həmin iş yerlərinin tələbləri nəzərə alınmaqla təşkili və müvafiq hazırlıqdan sonra onların həmin iş yerlərində yerləşdirilməsi kvota sisteminin səmərəliliyini xeyli artırır.

Xüsusi qayğıya ehtiyacı olan insanların məşğulluğunun təmini məqsədi ilə tətbiq olunan kvotalar bir çox ölkələr tərəfindən istifadə olunsa da, bu ölkələr üzrə kvotaların dərəcələri və tətbiq olunma qaydaları məqsəd eyni olsa da bir-birindən müəyyən mənada fərqlənirlər. Məsələn, kvotalar İspaniyada və Cənubi Koreyada 2%, Fransa və Polşada 6%, İtaliyada isə 7% həddindədir. Bu kvotaların yerinə yetirilməməsi bir çox hallarda cərimə tədbirlərinin tətbiqi ilə müşaiyət olunur.

Kvotalar, əsasən, müəssisənin profilinə və işçilərin sayına müvafiq olaraq tənzimlənir. Məsələn, baxmayaraq ki, İspaniyada və Cənubi Koreyada eyni kvota faizləri tətbiq edilir, onların şamil olunduğu müəssisələrin ölçüsü bir-birindən kəskin şəkildə fərqlənir. Belə ki, Cənubi Koreyada kvotalar işçilərinin sayı 300-dən artıq olan müəssisələrə tətbiq edildiyi halda, İspaniyada bu hədd 50 nəfərdir.

Təcrübə göstərir ki, hazırda əlillik sahəsində həyata keçirilən sosial müdafiə və məşğulluq siyasəti tədbirləri uzun tarixi inkişaf yolu keçmişdir. Bir çox hallarda sosial amil olan cahillik, etinasızlıq, xurafat və qorxu əlilliyi olan insanların qabiliyyətlərinin inkişafı üçün maneə olur və onların təcrid olunmasını şərtləndirirdi. Bununla yanaşı, əlilliyi olan şəxslərə mərhəmət hissinə əsaslanan kortəbii yardım isə ən yaxşı halda onların yaşayışı üçün zəruri olan ərzaq və qeyri-ərzaq mallarına tələbatlarının qarşılanmasına yönəlirdi. Bu sahədə dini təsisatların rolu xüsusi ilə qeyd olunmalıdır.

Hökumət tərəfindən atılan ən mühüm addımlardan biri 2003-cü ildən başlayaraq ölkə üzrə minimum əmək haqqı səviyyəsinin artırılmasıdır. Bu prosses son 9 ildə davamlı xarakter daşımış 2012-ci ildə minimum əmək haqqı 93.5 manat olmuşdur. 2004-cü ildə Azərbaycan Respublikasında yaşayış minimumunun müəyyənləşdirilməsinin, ona dövlət təminatının, ölkənin sosial-iqtisadi inkişafına uyğun olaraq yaşayış minimumunun yüksəldilməsinin prinsiplərini və qaydalarını müəyyən edən "Yaşayış minimumu haqqında Qanun", 2005-ci ildə ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətləri tənzimləyən "Ünvanlı dövlət sosial yardımı haqqında Qanun" qəbul edildi. Hər iki qanun son nəticədə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir .

**Cədvəl 3.**

**Aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardım**

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı | 48,705 | 78,092 | 163,409 | 144,844 | 122,781 | 120,478 |
| Ünvanlı dövlət sosial yardımı alan ailə üzvlərinin sayı, nəfər | 218,673 | 364,059 | 749,965 | 657,317 | 552,514 | 541,989 |
| onlardan: | | | | | | |
| Qadınlar | 83,529 | 168,007 | 387,609 | 332,799 | 277,562 | 275,631 |
| Uşaqlar | 92,291 | 165,064 | 357,620 | 322,994 | 274,265 | 270,831 |
| Bir nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımın məbləği, manat | 8.36 | 17.38 | 22.00 | 24.97 | 24.12 | 23.66 |

Araşdırma göstərir ki, əlilliyi olan insanların əmək bazarına inteqrasiyasının təmin edilməsi məqsədi ilə ölkədə aparılan siyasətin aşağıda göstərilən istiqamətləri bir sıra ciddi problemlərin olduğunu göstərir. Bu məqsədlə əvvəlcə ölkədə qüvvədə olan mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi vurğulanır. Belə ki, BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyanın ratifikasiya edilməsi ilə əlaqədar olaraq, müvafiq qanunvericilik aktlarının bu Konvensiyanın tələblərinə uyğunlaşdırılması, o cümlədən: bu istiqamətdə işlərin məqsədyönlü, ardıcıl və sistemli şəkildə aparılmasına ehtiyac vardır. Bundan başqa ölkədə insanların, əlilliyi olan şəxslərin imkanları və tələbatları barədə düşüncələrinin dəyişdirilməsi üçün, ilk növbədə, qanunvericilik aktlarından, rəsmi sənədlərdən, qəzetlərdən və ədəbiyyatdan əlilliklə bağlı bütün neqativ anlayışlar və şablon ifadələrin çıxarılmasının hüquqi-normativ əsaslarının yaradılması lazımdır. Digər bir məsələ isə kvotaların tətbiq olunması qaydalarının təkmilləşdirilməsi, o cümlədən: kvotaların tətbiqi ilə yanaşı, kvota üzrə müəyyənləşdirilmiş iş yerlərinin ehtiyatda saxlanılması mexanizminin tətbiqinin, əlilliyi olan insanların peşə hazırlığının məqsədli şəkildə həmin iş yerlərinin tələbləri nəzərə alınmaqla təşkili və müvafiq hazırlıqdan sonra onların həmin iş yerlərində yerləşdirilməsinin hüquqi əsaslarının yaradılması; kvotalara dair qanunvericiliyin tələblərinə riayət olunmamasına görə nəzərdə tutulan inzibati-cəza tədbirləri ilə yanaşı, qanunvericiliyin tələblərinə riayət olunmasına görə həvəsləndirici tədbirlərin də (məs. vergi güzəştləri, güzəştli sığortaya cəlb edilmə, kvota üzrə işə qəbul edilən əlilliyi olan insanların əmək haqqlarına subsidiyaların verilməsi) tətbiq olunmasının hüquqi əsaslarının yaradılmasına ehtiyac vardır. Əlavə olaraq əllillik qruplarının müəyyənləşdirilməsi ilə əlaqədar hüquqi-normativ sənədlərin müasir dövrün tələblərinə uyğunlaşdırılması, o cümlədən: əlilliyin müəyyənləşdirilməsi zamanı şəxsin hansı qrupa aid edilməsindən asılı olmayaraq, onun ümumilikdə əmək qabiliyyətli olmaması haqqında birmənalı rəy verilməsi əvəzinə, onun hansı şəraitdə, sahələrdə və peşələr üzrə məşğul ola bilməməsi haqqında rəy və tövsiyələr verilməsinin məqsədəuyğun olduğunu nəzərə alaraq, əlaqədar qanunvericilik aktlarında müvafiq dəyişikliklər edilməsi və əlilliyin müəyyən edilməsi meyarları, təsnifatı, peşə reabilitasiyası və məşğulluğu ilə əlaqədar qanunvericilik müddəalarının beynəlxalq normalara uyğunlaşdırılması və onların özləri arasında mövcud uyğunsuzluqların aradan qaldırılması lazımdır.

Dissertasiyanın **nəticə** hissəsində bir sıra mühüm nəticələr əldə edilmiş, bu sahədə mövcud olan çatışmamazlıqlar aşkar edilmiş və bunları aradan qaldırmaq üçün konkret **təkliflər** verilmişdir.

-Əlilliyi olan insanların özünü məşğulluğunun təmin edilməsi və sahibkarlıq fəaliyyətinə cəlb edilməsinin stimullaşdırılması və məsləhət xidməti sisteminin təşkil olunması;

-Əlilliyi olan insanların özəl sektorda işə götürülməsi halında əmək haqqına subsidiyaların və digər həvəsləndirici tədbirlərin müəyyənləşdirilməsi;

-Əlilliyi olan insanların biznes mühitinə inteqrasiyası üçün məqsədli biznes forumların təşkili;

-Sosial tərəfdaşlar, o cümlədən, maraqlı QHT-lər, həmkarlar təşkilatları, sahibkarlar birlikləri, beynəlxalq və yerli donorlar və hökumət nümayəndələri arasında əlilliyi olan insanların problemlərinə dair mütəmadi görüşlərin, dəyirmi masaların təşkili və birgə tədbirlərin həyata keçirilməsi;

-Ölkədə əlilliyi olan insanlarla əlaqədar məsələlər üzrə qəbul olunmuş qanunların tətbiqi və onlara əməl olunması üzərində nəzarət mexanizmlərinin gücləndirilməsinə ehtiyac var;

-Əlillərin təhsilinin yaxşılaşdırılması sahəsində ciddi islahatlar aparılmalı və bu yöndə ali təhsil müəssisələrində əlillər üçün xüsusi klubların, dərnəklərin yaradılması;

-Azərbaycanda əlillik kateqoriyalarına aid olan əlillərdən işə yararlı olan işsiz əlillərin qeydiyyatının aparılması və onların müvafiq yerlərə yerləşdirilməsi;

-Ali təhsil müəssisələrində əlillik kateqoriyalarından olan bütün növ əlillərin rahat təhsil almaları üçün heç bir şərait yaradılmamışdır. (Halbuki qanunvericiliyimizdə bu haqda qanunlarımız var. Əlillərin təhsil alması üçün ali təhsil müəssisələrində 1992-ci ildə imzalanmış Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun 19-cu maddəsində əlillərin orta, orta ixtisas və ali təhsili ilə əlaqədar yazılan bəndə görə Əlillərin təhsili üçün xüsusi şəraitin təmin edilməsi məqsədilə texniki-peşə məktəblərinin, texnikumların və ali məktəblərin əlillər üçün ixtisaslaşdırılmış fakültələri və ya şöbələri təşkil edilməlidir) və icrasında çatımazlıqlar mövcuddur;

-Əlillərin məşğulluqları təmin edilməsi məsələsində milli gəlir ilə məşğulluq səviyyəsi arasındakı düz mütənasiblik var. Belə ki əlillərin məşğulluğu təmin olunmadığı zaman, istehsalatda iştirak etmədik-

lərindən və bunun nəticəsi olaraq da ölkə gəlirində payı yoxdur.

-Əlilliyi olan insanlar işə qəbul olunarkən əsasən aşağı əmək haqqı olan vəzifələrə təyin edilirlər. Bu problemin aradan qaldırılması üçün aidiyyatı qurumlar tərəfindən lazımi tədbirlər görülməlidir.

-Əlillərin məşğulluqları təmin olunmayan ölkələrdə vergi ödəyiciləri, işləmədiyi üçün vergi ödəməyən əlillərin istehlak etdiklərini və dövlət tərəfindən kompensasiya edilən xərclərini də öz üzərinə götürərək daha çox vergi vermək məcburiyyətində olurlar. Ancaq dövlətin, əlillərin məşğulluğunun təmin edilməsi üçün peşə seçilməsi və onların peşə təhsilinə ayrılmış nizamlı şəkildə fəaliyyət göstərən bir xərc siyasəti olarsa vergi ödəyicilərinin ödəmək məcburiyyətində qaldıqları hissənin tam geri dönməsi baş verər.

-Əlillərin məşğulluqlarının təmini üçün dövlət tərəfindən icra olunan kvotaların tətbiq olunması qaydaların təkmilləşdirilməlidir.

-Kvotaların tətbiqi ilə yanaşı, kvota üzrə müəyyənləşdirilmiş iş yerlərinin ehtiyatda saxlanılması mexanizminin tətbiqinin hüquqi əsaslarının yaradılması-bu zaman əlilliyi olan insanların peşə hazırlığının məqsədli şəkildə kvota üzrə ehtiyatda saxlanılan iş yerlərinin tələbləri nəzərə alınmaqla təşkili və müvafiq hazırlıqdan sonra onların həmin iş yerlərində yerləşdirilməsi yolu ilə kvota sisteminin səmərəliliyi yüksəldilməlidir.

-Vergi qanunu ilə əlaqədar qanunvericilikdə əlavə və dəyişikliklərin edilməsi ilə yanaşı, qanunvericiliyin tələblərinə riayət olunmasına görə həvəsləndirici tədbirlər həyata keçirilməlidir.

-Müvafiq qanunvericilikdə müəyyən olunmuş kvotadan artıq əlilliyi olan şəxsi işə götürmüş müəssisələr üçün belə işçilərin sayına mütənasib olaraq müvafiq üstünlük və güzəştlər tətbiq olunmalıdır.

-Kvota öhdəliklərinin yerinə yetirilməməsinə görə ödənilən ödənişlərin müəyyən fonda yığılması və bu sahədə qabaqcıl xarici ölkələrin təcrübəsindən yararlanmalıdır.

-Kvota öhdəlikləri yerinə yetirilmədikdə ödəniləcək cəzaların dəfələrlə artırılması və bu tədbirlərin həyata keçirilməsi zamanı şəffaflıq təmin olunmalıdır.

-Müvafiq sahədə statistik müşahidələrin aparılması, məlumatların toplanması, emalı, monitorinqi, təhlili, qiymətləndirilməsi və siyasətə dair tövsiyələrin hazırlanması işi qaydaya salınmalıdır.

-Əlilliyi olan insanlara dair statistik məlumatların toplanması, qruplaşdırılması və işlənməsinin təkmilləşdirilməsi, o cümlədən əlilliyi olan

insanların yaş-cins, regional və sosial-demoqrafik tərkibi, onların sosial müdafiəsi və məşğulluğu kimi məsələlərə dair dərinləşdirilmiş təhlillər aparmağa imkan verən, daim yeniləşən məlumat bazası yaradılmalıdır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Əsgərov A.M. Xüsusi qayğıya ehtiyacı olan insanların sosial təminatı və məşğulluğun təmini. //Ümumimilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların Ümumrespublika Elmi Konfransı, Bakı-2010, səh. 132-134.
2. Əsgərov A.M. Azərbaycanda əlillərə dövlət qayğısı və bu sahədə xarici ölkə təcrübəsi.// Ümumimilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Hüquq elminin müasir problemləri" mövzusunda 2-ci Beynəlxalq Konfrans, məqalə-29 aprel-1 may 2010 Bakı Dövlət Universiteti - Qafqaz Universiteti, səh. 995-1003.
3. Əsgərov A.M. Qloballaşma şəraitində Azərbaycanda əlillərin müasir problemləri və həlli istiqamətləri.// "Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya" İqtisadiyyat və Beynəlxalqa münasibətlər, III Beynəlxalq konfrans 15-17 oktyabr 2010 Bakı/Azərbaycan, səh. 778-784.
4. Əsgərov A.M. Azərbaycan Respublikasında əlillərin cəmiyyətə inteqrasiya olunmasındakı problemlər.// Əmək və Sosial Problemlər üzrə ETTM-nin "Əmək və Sosial Problemlər" Elmi əsərlər toplusu N1(6)-2010, səh. 223-229.
5. Əsgərov A.M. Azərbaycan Respublikasında Həssas qrupların məşğulluq problemləri-gənclər timsalında. //Azərbaycan Respublikasında İnnovasiya yönümlü iqtisadi inkişafın Problemləri və onların həlli yolları mövzusunda Respublika elmi Konfransı, AMEA-nın İqtisadiyyat institutu, Sumqayıt Dövlət Universiteti, səh. 52-53.
6. Əsgərov A.M. Роль государства в решении проблем инвалидов . //Журнал инвестиции: практика та досвид.2011 aprel sayı-07 Ukrayna Respublikası. Səh. 92-94.
7. Əsgərov A.M., Qafarov.A.H. Xüsusi qayğıya ehtiyacı olanların məşğulluq məsələləri və problemləri . //Azərbaycan Respublikası "Azərbaycan yaradıcı ziyalılar birliyi" ictimai birliyi "Elmin müasir naliyyətləri" mövzusunda 4-cü beynəlxlq iştiraklı distansion elmi konfransın materialları, (Bakı şəh.; 29-29 fevral 2012), səh. 21-31.

8. Əsgərov A.M. Xüsusi qayğıya ehtiyacı olanların (gənclərin) məşğulluq məsələləri. //2012-ci ildə Lənkəran Dövlət Universitetində keçirilən "Dayanıqlı inkişaf və idarəetmə metodları - nəzəriyyə və praktika" adlı beynəlxalq konfransında, səh. 123-124.

9. Əsgərov A.M. Azərbaycanda gənclərin əmək bazarında iştirakı məsələləri. //2012-ci ildə AMEA-nın Xəbərləri iqtisadiyyat seriyasında,2012 N-3 səh. 69-73.

10. Əsgərov A.M., Qafarov.A.H. Azərbaycanda əlil uşaqların cəmiyyətə inteqrasiya olunması və bu sahədə xarici təcrübə. //2013-cü ildə AMEA-nın İqtisadiyyat institutunun Elmi əsərlər jurnalında 2013-N2, səh.285-291.

**Агамир Мираскер оглы Аскеров**

# ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ЗАНЯТОСТИ ГРУПП НАСЕЛЕНИЯ ТРЕБУЮЩИХ ОСОБОГО ВНИМАНИЯ (на примере инвалидов)

## РЕЗЮМЕ

Работа состоит из введения, 3-х глав, выводов и списка использованной литературы.

Во введении обосновывается актуальность этой проблемы, уровнь изученности проблемы, цель и задачи исследования, его теоретические и методологические основы, практическая значимость и научная новизна.

В первой главе "Теоретико-методологические основы рынка труда для лиц с особыми потребностями" рассматриваются теоретические и методологические основы участия лиц с ограниченными возможностями на рынке труда, его значение и влияющие на него факторы, анализируютя социально-экономические основы занятости инвалидов на современном этапе.

Во второй главе "Современное состояние интеграции лиц с ограниченными возможностями на рынок труда, их экономическая и социальная оценка ситуации" ведётся сравнительный анализ интеграции лиц с ограниченными возможностями на рынок труда, с точки зрения международного опыта и применения его для эффективной организации их работы.

В третьей главе "Обеспечение эффективной занятости лиц с ограниченными возможностями в Азербайджанской Республике" исследуется система квот и возможности реабилитации лиц с ограниченными возможностями.

В конце автор обобщая полученные резултаты,выдвигает ноучно обоснованные предложения.

**Aghamir Mirasgar Asgarov**

# PROVISION OF EMPLOYMENT PROBLEMS IN NEED OF SPECIAL CARE GROUPS
## (sample of disabilities)

## SUMMARY

Research Project consists of following parts; introduction, 3 chapters, conclusion, and the list of used literature.

In the introduction part the relevance of the issue is grounded, the level of study of the problem, the goals and objectives of the research, its theoretical and methodological foundations, practical significance and major scientific innovations are explained.

In the first Chapter, “The theoretical and methodological foundations of the labor market for the population groups with special needs”, the socio-economic foundations of the employment of disabled people in the labor market at the present stage are analyzed, the theoretical and methodological issues and the factors that influence it are examined.

In the second Chapter, “The current conditions of the integration of disabled people in the labor market and its socio-economic assessment”, the comparative studies of international experience in the framework of the integration of citizens in specific categories, especially disabled people, in the labor market are analyzed and the international experience in effective organization of employment are explored.

The third Chapter, “The effective organization of employment of the disabled people in the Republic of Azerbaijan”, covers the studies of the rules of employment of disabled people, the quota system in the country, and their possibilities for rehabilitation.

In the end, the author summarizes the results obtained, and puts forward suggestions in the scientific framework.

AMEA-nın mətbəəsində çap olunub.
Tiraj: 100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**Агамир Мираскер оглы Аскеров**

# ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ЗАНЯТОСТИ ГРУПП НАСЕЛЕНИЯ ТРЕБУЮЩИХ ОСОБОГО ВНИМАНИЯ (на примере инвалидов)

Специальность: 5308.01- Общая Экономика

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**БАКУ – 2013**